Ədəbiyyat QƏZETİ

# Bir dağ başında olmalıydıq indi səninlə, türkülər söyləməliydik əsən yellərə



Nuri CAN

## XOŞCA QAL, KÖNLÜMÜN NAZLISI

Gedirəm buralardan,
yalınayaq və üzgün,
gedirəm buralardan,
önümdəki uçurumları
gözə almadan:
asi-asi...
qürurlu-qürurlu...
ümidsiz-ümidsiz...
Bu şəhəri,
bu hüznü,
bu xəyalları
tərk edərək gedirəm,
gedirəm
kor baxışlardan,
saxta dostluqlardan,
yalan sevdalardan
uzaqlara,
uzaqlara,
uzaqlara...
Xoşca qal, ayaq izim,
xoşca qal, ürək ağrım,
xoşca qal, könül sızım,
xoşca qal...

Xəyallarım,
o gerçəkləşməyən xəyallarım,
qaldığı yerdə qalsın...
arxamda - yaralı bir ürək,
kədərli bir ömür,
nimdaş bir xatirə
və
xoşbəxt edə bilmədiyim
insanların solğun üzü...

Sevdamı da
götürüb gedirəm, budur,
xoşca qal,
gözümün ilk ovu,
xoşca qal,
könlümün nazlısı,
xoşca qal,
sevgimin qanadıqırıq
türküsü...

Gedirəm,
başımı yuxarı qaldırmadım,
gedirəm,
arxamda -
qırıq saza bənzər
bir sevda,
paramparça bir ürək,
yanaq-yanaq göz yaşı...
Küçələrmi ağladı,
pəncərələrmi ağladı,
sənmi ağladın -
bilmədim...
Budur,
çıxıb gedirəm,
xoşca qal, alın yazısı,
xoşca qal, küskün bəxt...

Üzümdə qış,
baxışlarımda qar,
yorğun-yorğun axan
ırmaqlar misalı
yalnızlığımı aparıram
şərqilərin susduğu,
sevgilərin güllələndiyi
qərib limanlara...
Xoşca qal, gecəmin tənha ulduzu,
xoşca qal, boynu bükük bənövşəm
və sorma:
yaxınmı, uzaqmı
olacaq yolum,
hansı dağın ardında
bənd alacağam,
nə - sevgimi, qəhrmi
yol yoldaşı olacaq mənə,
bir də
dönüb gələcəyəmmi
mor dağlar çiçək açanda?
Sorma!
Sorma...
Xoşca qal,
xoşca qal qəlbimin ahı...

## ÜRƏYİM DAĞLARDA QALDI

Bir dağ başında olmalıydıq
indi səninlə,
uzanıb otların üstündə,
şeirlər oxumalıydıq
mavi ırmaqlara,
öpüb günəşi alnından,
sislər dağılınca,
çəkilib getməliydik.

Bir dağ başında olmalıydıq
indi səninlə,
bir könül süfrəsi açıb,
içimizdəki yanğını -
kimin bəxtinə nə düşər, düşər -
bölüşməliydik,
bir bulağın
soyuq sularına
dayayıb ağzımızı
çatlamış dodaqlarımızla
həyatı öpməliydik,
sular aydınlanınca,
çəkilib getməliydik.

Bir dağ başında olmalıydıq
indi səninlə,
türkülər söyləməliydik
əsən yellərə,
unudub ağrını-acını,
həsrəti,
qapılar qapanınca qaranlığa,
yol-iz aydınlanınca,
çəkilib getməliydik.

Bir dağ başında olmalıydıq
indi səninlə,
başını
daşdan-daşa çarpan
bir ırmaq,
ya da
dizləri qanamış
bir çocuq kimi
oturub doyunca ağlamalıydıq
və
saf dostluqlar,
təmiz sevgilər
uğrunda
hər şeyə, hər şeyə dözməliydik...
Və gün doğunca,
qarşı dağlar görününcə,
çəkilib getməliydik.

Sən gülüncə,
necə fərəhlə gülümsəyərdi
bəyaz gül,
sən gülüncə,
necə fərəhlə gələrdi
dağlara bahar;
budaqlar tumurcuqlanar,
quşlar ötər,
sular çağlayar,
ardınca
müjdə verməyə
qaçar uşaqlar
və bir karvan
baş alıb gedər
bilinməyən diyarlara...

İndi
hara baxsam,
gözlərim səni görür,
köz-köz lalələri
oxşayır əlin,
gülüşünə bənzəyən
bir çiçək tapmışdım
qarlı yamacda -
ətri hələ də əllərimdədi...
Ötüb keçən
bir mövsümün
səhifələrində qaldı
xatirələrimiz
və ömrümüzün
hər budağında
bir şeir saraldı...

İndi yoxsan,
rüzgarlar səni axtarır,
türkülər səni çağırır,
yaz hər gələndə
bir çiçək
bükür boynunu,
bir bənövşə də
açır gözlərini,
indi yoxsan,
ayrılığına
ən çox çobanyastıqları
üzüldü,
bir də qızılgüllər...

İndi
hansı bulaq soyudar
ürək yanğımı,
indi
hansı rüzgar dağıdar
dərd-qəmimi?
Dağım sən idin,
bulağım sən idin,
rüzgarım sən idin, sən...

## GETMƏ

Getmə!
Tufan qopar dənizdə -
bir rüzgar hıçqırar,
bir budaq qırılar,
boynunu bükər
səhra çiçəkləri,
kəpənəklər ölər...

Getmə!
Bir ulduz
küsər göy üzündən,
içini çəkər bir çocuq,
bütün bulaqların
suyu quruyar,

səmtini səhv salar bahar -
solar
nazlı çiçəkləri
qəlbimin,
üzülərəm.

Getmə!
Yıxılar
içimdəki xəyal dağları,
öksüz qalar
saçlarını öpən səhər yeli,
öksüz qalar Çobanulduzu,
bir daha durnalar uçmaz,
bir daha bülbüllər ötməz...

Getmə!
İtir gözümdən
səni aparan qatar,
qar yağır vağzala...
Qarmı?
Ayrılıqmı?
Üşüyürəm...
Üşüyürəm...
Üşüyürəm...

Getmə!
Ümidsiz və çarəsiz
qoyma məni!
Yenə bənövşələr açsın dağlarda,
yenə göy üzü cilvələnsin,
ulduz-ulduz,
yenə irmaqlar çağlasın,
yenə ormanlar
yaşıla bürünsün...

Getmə!
Getmə!
Getmə!

## SUSDUM

*Bəzən*
*dilə gətirmədiyimiz*
*hirsdir susqunluq...*
**A.H.İZGÖRƏN**

Hər kəsin danışdığı bir dünyada
mən susdum!
Nə qədər susmaq olarsa,
o qədər susdum!
Özümlə danışıram indi yalnız...
Yalnız
ürəyimin telləriylə
toxunuram səsimə -
kimsələr duymur...

Susdum!
Nə qədər susmaq olursa,
o qədər susdum!
Susdu mənimlə dəniz,
susdu dəli dalğalar,
susdu qağayılar.
Susdum!
Ağrı-acılarımdan
danışacaqdım ki,
susdum.
Bir fəryad
qanayır içimdə
deyəcəkdim ki,
susdum.
Nə qədər vulkan boğdum qəlbimdə!
Xəncəri, sadəcə,
öz ürəyimə sapladım,
sapladım və susdum!
Hüznü üzümə,
acıları gözlərimə
nəqş etdim
və susdum.

Susdum!



Susdu dodağımdakı şərqi,
susdu gözlərimdəki şeir,
susdu
yaralarımı yalayan rüzgar,
susdu
küçələrində qəhr olduğum şəhər,
yalnız gözlərim danışır, gözlərim,
amma
kimsə eşitmir,
eşitmir,
eşitmir...

Saçı ağarmış xəyallarla,
nəmli kirpiklərlə
buludlananda gözlərim
göydə
şimşək olub çaxıram -
kimsə
görmür,
görmür,
görmür...

Susdum!
Sevdiyimi
hayqıracaqdım ki, susdum;
susdu mənimlə göy,
susdu mənimlə yer...
İçimdəki sevgiləri
bir-bir atıram uçurumlardan -
kimsə
bilmir,
bilmir,
bilmir...

Nə zaman
yanaqlarından öpmək
istəsəm həyatın,
nə zaman
saçlarını oxşamaq
istəsəm rüzgarların,
nə zaman
içimdə
incəcik bir sevgi
qımıldansa,
sapsarı hüznlər tökülür
könül bağçama,
göz yaşım sel olub axır -
kimsə
silmir,
silmir,
silmir...

Susdum!
Susdu mənimlə sarı səbir,
susdu mənimlə sarı həsrət...
Yalnız gözlərimlə
toxunuram həyata -
kimsə
duymur,
duymur,
duymur...

Ey,
beşiyini yelləyə-yelləyə
boğduğum həyat,
ey,
ürəyimdə böyüdüb,
öldürdüyüm sevgi,
nə gecə,
nə gündüz
məni ovutmur,
yaralarım qaysaq tutmur...

Mən susdum!
Susmur
ürəyimi qovuran qasırğa,
susmur
pəncərəmi döyəcləyən damlalar,
susmur
çöldə inim-inim inləyən rüzgar,
Ay üzgün,
ulduzlar küskün,
içimdə
minlərlə şeir ölür hər gecə,
kimsə
duymur...
duymu...
duy...

## AH, MÜMKÜN OLSA

Ah, mümkün olsa,
kədərdən sevinc,
sevincdən ümid
düzəldərdim,
şirni əvəzinə
satardım uşaqlara.

Ah, mümkün olsa,
rüzgar olub,
otaqlarına
sızardım çocuqların,
üstlərini örtər,
alınlarından öpər,
bir nağıl danışar,
sonra
səssizcə çıxıb gedərdim.

Ah, mümkün olsa,
ağac olardım
bir yamacda,
meyvəmi çocuqlara,
yarpaqlarımı
rüzgarlara verərdim.

Ah, mümkün olsa,
bulaq olardım, bulaq,
su verərdim
ürəyi yananlara -
qurda-quşa,
gülə-çiçəyə,
insana...
Sevgiylə yuyardım ürəkləri,
axıb gedərdim diyar-diyar...

Ah, mümkün olsa,
torpaq olardım, torpaq,
gül olub açardım
bağ-bağçada,
buğda yetişdirərdim, bol-bol...

Ah, mümkün olsa,
uşaqlara verərdim dünyanı,
səhərlər günəş olub doğardım,
axşamlar
nağıl olub, göydən enərdim...

Ah, mümkün olsa,
müharibədən sülh,
sülhdən insan düzəldərdim.
Ah, mümkün olsa,
kədərdən sevinc,
sevincdən ümid,
ümiddən dostluq düzəldərdim,
hər səhər
şirni əvəzinə
verərdim uşaqlara...

## MƏRHABA

Mərhaba,
doğan gün,
mərhaba,
budaqların
ucundakı tumurcuqlar,
mərhaba,
dağlardan əsən yel,
mərhaba,
sığırçın quşlarının sevinci -
bahar,
mərhaba,
günəşin üstünə
yüyürən çocuqlar.

Mərhaba,
sevgi xəyallarım,
mərhaba,
türkü dadı verən həyat,
mərhaba,
ürəklərdəki sevda,
gözlərdəki işıq,
dodaqlardakı şərqi.
Mərhaba,
həsrəti çəkilən sabahlar,
içəridəkilər, bayırdakılar,
nisgili qanayan dostlar...

Mərhaba,
göyərən budaq,
mərhaba,
güllərin günəşə gülümsəməsi,
mərhaba,
yerdəki şeh,
göydəki Ay,
mərhaba,
yağışın çəməndən,
çəmənin yağışdan doymaması,
mərhaba,
yeddi iqlim, dörd mövsüm,
mərhaba,
günəşlə bəslədiyim,
sevgiylə süslədiyim
ölkəm - Türkiyəm!

*Hazırladı:*
**DİLSUZ**

